**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN HEYKƏLTƏRAŞLIĞINDA AKİF ƏSGƏROV YARADICILIĞININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 6215.01 – Təsviri sənət

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Roza Rauf qızı Həsənova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: sənətşünaslıq üzrə fəlsəfə doktoru,dosent
**Samir Qismət oğlu Sadıqov**

Rəsmi opponentlər: Əməkdar rəssam, professor

**Rəsul ismayıl oğlu Hüseynov**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Günel Tofiq qızı Seyidəhmədli**

sənətşünaslıq üzrə fəlsəfə doktoru
**Ramil Afiq oğlu Quliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:

Xalq rəssamı, professor
**Fuad Məmməd Emin oğlu Salayev**

Dissertasiya şurasının
elmi katibi:

sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent
**Xanım Zəlimxan qızı Əsgərova**

Elmi seminarın sədri:

Xalq rəssamı, professor
**Salxab Isa oğlu Məmmədov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Akif İzzətulla oğlu Əsgərov çağdaş Azərbaycan heykəltəraşlığının inkişafında mühüm rol oynayan sənətkarlardandır.

Akif Əsgərov əsərləri ilə daima diqqəti özünə cəlb etmiş və onlar haqqında hələ sovet dövründəki müxtəlif nəşrlərdə bir sıra təqdiredici mütəxəssis fikirləri də söylənmişdir. Sənətşünaslardan Cəmilə Novruzova, Ziyadxan Əliyev, Vüsal Bağırov və Samir Sadıqov, eləcə də heykəltəraşlardan Ömər Eldarov, Fuad Salayev və başqaları onun müxtəlif illərdə sərgilərdə nümayiş etdirilən dəzgah əsərlərini və müxtəlif məzmunlu kompozisiyalarını, eləcə də açıq səma altında ucaldılan monumental əsərlərini yüksək dəyərləndirmişlər.

Akif Əsgərov bədii axtarışlarla seçilən səmərəli yaradıcılığı zamanında dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Yaratdığı dəyərli əsərlərə görə o, 2006-cı ildə "Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi", 2018-ci ildə isə "Azərbaycan Respublikasının Xalq rəssamı" fəxri adına layiq görülmüşdür. 2016-cı ildə isə heykəltəraş Rusiya Rəssamlıq Akademiyasının fəxri üzvü seçilmişdir. 2020-ci ildə Xalq rəssamı, professor Akif Əsgərov II dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir.

Pedaqoji fəaliyyəti dövründə Akif Əsgərov bir neçə diplom işlərinin rəhbəri olmuşdur. Harmoniya, gözəllik kimi dəyərlər Akif Əsgərov yaradıcılığının əsas meyarlarıdır.

Azərbaycan sənətşünaslığında indiyə qədər sənətkarlığı və şəxsiyyəti duyulası dərəcədə yüksək olan bu heykəltəraşın çoxşaxəli yaradıcılığına dair bu vaxta qədər geniş tədqiqatın olmaması qarşılığında, Akif Əsgərovun axtarışlarla zəngin sənət yoluna həsr olunmuş əhatəli elmi tədqiqatın aparılmasına böyük zərurət duyulur. Belə ki, onun müasir Azərbaycanın heykəltəraşlıq sənətinin təşəkkülünə verdiyi töhfələrin bədii-estetik dəyərinin müəyyən olunması gənc heykəltəraş nəslinin formalaşması və bütünlükdə milli plastika sənətimizin inkişafı yolunda mühüm əhəmiyyət kəsb

etməklə, gəlinən elmi qənaətlərə görə sənətşünaslığımızın yeni elmi-nəzəri dəyərlərlə zənginləşməsinə kömək etmiş olardı.

Akif Əsgərovun yaradıcılığı daima sənətsevərlərin və mütəxəssislərin diqqətini özünə cəlb edib. Onun yaradıcılığı haqda informasiyaya bir çox mətbu orqan, internet saytları və televiziya verilişlərində yer verilmişdir. Onun müxtəlif miqyaslı sərgilərdə nümayiş etdirilən əsərləri, eləcə də ayrı-ayrı şəhərlərdə ucaldılan monumental abidələri sənətşünas və jurnalistlərin diqqətini cəlb etmiş, görkəmli sənətkarın sənət yolu və yaradıcılığı həmin məqalələrin əsas mövzusu olmuşdur. Bu mənada E. İbrahimovun "Xəyallar və gerçəkliklər mövsümü gəldi"[1], Edibe Dolunun "Dəyişiklik istəmi və bir sənət hədiyyəsi"[2], Nigar Yunusun "Heykəllərin romantikası"[3], Tural Ağayevin "Akif Əsgərov yaradıcılığında gözəllik və poetikanın tərənnümü"[4] və s. qeyd etmək olar.

Lakin yuxarıda göstərildiyi kimi, bu məqalələr ümumi xarakter daşımış və heykəltəraşın yaradıcılığını tam əhatə edə bilməmişdir. Elə qeyd olunanlara rəğmən demək lazımdır ki, heykəltəraş Akif Əsgərovun qırx ildən çox bir dövrü əhatə edən yaradıcılığı bu vaxta qədər ətraflı və tam şəkildə öyrənilməmişdir. Böyük sənətkar haqqında yalnız 75 ilik yubileyi ilə əlaqədar kataloq buraxılmış, bundan əlavə onun bir neçə dəzgah əsəri haqqında sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüsal Bağırovun "Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı. XX əsr" kitabında[5] məlumat verilmişdir. Bununla yanaşı demək lazımdır ki, Bakıda 2011-ci ildə Ziyadxan Əliyev və Aslan Xəlilovun müəllifliyi ilə işıq üzü görmüş

---

[1] İbrahimov, E. Xəyallar və gerçəkliklər mövsümü gəldi / Xalq – 1997, 7 oktyabr.

[2] Edibe Dolu. Dəyişiklik istəmi və bir sənət hədiyyəsi / İncəsənət – 1993, 22 iyun. – s.1

[3] Yunus N. Heykəllərin romantikası / N. Yunus – Bakı: Mədəniyyət – 2008, 31 iyul. – s.14

[4] Ağayev, T. Akif Əsgərov yaradıcılığında gözəllik və poetikanın tərənnümü [Elektron resurs] / T. Ağayev – Palitra – 2016, 24 avqust – s.13. //http://www.anl.az/down/meqale/palitra/2016/avqust/503557.htm

[5] Bağırov V. Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı XX əsr / V. Bağırov – Bakı – 2004.

üç hissəli "Azərbaycan incəsənəti"[6] kitabında da heykəltəraşın bir çox əsərlərinin reproduksiyaları öz əksini tapmışdır. Ziyadxan Əliyevin 2012-ci ildə nəşr olunmuş "Sabir təsviri sənətdə" kitabında[7] isə xalq rəssamı Akif Əsgərovun Mirzə Ələkbər Sabirin adını daşıyan Sabirabad rayonunda ucaldılmış heykəli haqqında məlumat öz əksini tapmışdır.

Hökümə Ağasoy-Səfərovanın 2014-cü ildə yazdığı "Müstəqillik dövründə Azərbaycan dəzgah heykəltəraşlığı" dissertasiyasında da[8] Xalq rəssamı Akif Əsgərovun bir sıra dəzgah əsərlərinin bədii təsvir və təhlili öz əksini tapmışdır.

Bu zamana qədər Akif Əsgərov haqqında yazılanları dəyərləndirməli olsaq, onda həmin qəzet və jurnal məqalələrini dərin təhlildən uzaq, kifayət qədər lakonik və məlumat xarakterli yazılar hesab etmək olar.

Belə ki, ictimaiyyətə çatdırılan məlumatlar Akif Əsgərovun yaradıcılığının yalnız bir sahəsini – dəzgah heykəltəraşlığını əhatə edir. Başqa sözlə desək, onlar sənətkarın yaratdığı portretləri, monumental və memorial-xatirə əsərlərini, barelyef və qorelyefləri, müxtəlif məzmunlu kompozisiyaları əhatə etmir. Bütün bunlar da istedadlı heykəltəraşın zəngin yaradıcılığının bütün sahələrinin əhatəli tədqiq və təhlil edilməsinin zəruriliyini şərtləndirir və onun mərhələrlə, hərtərəfli şəkildə öyrənilməsini tələb edir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin əsas tədqiqat obyektini Akif Əsgərovun heykəltəraşlığın müxtəlif janrlarında yaratdığı sənət əsərləri təşkil edir. Rəssamın xüsusi və dövrü mətbuatda nəşr olunmuş əsərləri ilə bərabər, şəxsi kolleksiyalarda saxlanılan əsərləri tədqiqat obyekti bazasını xeyli genişləndirmişlər.

---

[6] Əliyev, Z. Azərbaycan İncəsənəti. II-III hissələr. / Z. Əliyev, A. Xalilov – Bakı – 2011 – s.142

[7] Əliyev, Z. Sabir təsviri sənətdə / Z.Əliyev– Bakı – 2012 – s.166

[8] Ağasoy-Səfərova, H. Müstəqillik dövründə Azərbaycan dəzgah heykəltəraşlığı: / sənətşünaslıq üzrə fəlsəfə doktoru, dis. avtoreferatı. / – Bakı: – 2015

Tədqiqatın predmeti kimi 70-ci illərdən başlayaraq günümüzə qədər Azərbaycan heykəltəraşlığının inkişafında Akif Əsgərovun rolunu və yerini araşdırmaqdır. Heykəltəraşın yaradıcılığındakı yeni təmayülləri araşdırılıb və konkret nəzəri müddəalarla təsbit etmək, yaradıcılığını səciyyələndirən bədii xüsusiyyətlərin, yeni və orijinal ifadə vasitələrinin təhlili tədqiqat predmetinin qayəsini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycanın Xalq rəssamı, professor Akif Əsgərovun yaradıcılığını sistemli təhlil edərək, rəssamın özünəməxsusluğunu, dəst-xəttini, yaradıcılıq metodunu və mərhələlərini müəyyən etmək tədqiqatın qarşısında qoyulmuş əsas məqsəddir. Eyni zamanda rəssamın yaradıcılıq xüsusiyyətlərini müəyyənləşdirərkən, ona həmdövr olan Azərbaycan incəsənəti kontekstini təhlil etmək tədqiqatın məqsədi kimi çıxış edir.

Akif Əsgərov yaradıcılığının həmdövr və müasir Azərbaycan incəsənəti kontektsində öyrənilməsi aşağıdakı vəzifələrin həllini nəzərdə tutur:

- Akif Əsgərovun yaradıcılığını sistemləşdirib təsnifatını aparmaq;
- Akif Əsgərovun indiyə qədər öyrənilməyən əsərlərini təhlil etmək;
- Xalq rəssamı Akif Əsgərovun yaradıcılığında mövzu axtarışlarını müəyyənləşdirmək;
- Akif Əsgərovun heykəltəraşlıq əsərlərində lirik-fəlsəfi düşüncənin bədii təzahürünü müəyyənləşdirmək;
- Akif Əsgərovun yaradıcılığına məxsus çoxfiqurlu kompozisiyaların bədii ifadə vasitələrini araşdırmaq;
- Xalq rəssamı Akif Əsgərovun yaradıcılığında görkəmli şəxsiyyətlərə həsr edilmiş əsərlərin bədii xüsusiyyətlərini müəyyənləşdirmək;
- Akif Əsgərov yaradıcılığına məxsus obrazlılığın təqdimində müəllif ideyasının açılışını araşdırmaq;
- heykəltəraşın yaradıcılıq kredosunu müəyyənləşdirməklə ona qiymət vermək;
- istedadlı heykəltəraşın yaradıcılığının müasir Azərbaycan sənətşünaslıq elmində yerini müəyyənləşdirmək.

**Tədqiqat metodları.** Tədqiqat işinin nəzəri-metodoloji əsasını təsvir, bədii formanı öyrənən formal, plastik sənətlərinin əsas təhlil metodu olan stilistik metodu təşkil edir ki, bunun da mühüm aspektlərini kompozisiyanın, ikonoqrafiyanın, plastik xüsusiyyətlərinin, fərdi maneranın, materialın, texnikanın, ayrı-ayrı formal elementlərin təhlili, onunla eyni dövrdə yaşayıb yaradan heykəltəraşların əsərləri ilə müqayisəli təhlili təşkil edir. Bundan başqa tədqiqat zamanı bədii əsərin tarixən şərtləndirilmiş obrazlı və simvolik məzmununu açmaq məqsədi ilə ikonoloji metoddan da geniş istifadə olunub. Eyni zamanda tarixi-mədəni və tarixi-bədii yanaşma üsuluna da müraciət edilib. Tədqiqat zamanı arxiv sənədləri araşdırılaraq təhlil olunmuş, mətbuatda sənətkarın yaradıcılığına həsr edilmiş yazılar ümumiləşdirilərək şərh edilmiş, müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Akif Əsgərov müxtəlif mövzularda yaratdığı heykəllərdə milli ənənə prinsipi üstünlük təşkil edir;
- heykəltəraşın plastik ifadə axtarışları realistik forma qanunlarının biliyinə əsaslanır;
- heykəltəraşın yaratdığı tarixi obrazlar dövrünə uyğun xarakterik xüsusiyyətlərə uyğun əks edilmişdir;
- Akif Əsgərovun yüksək plastik mədəniyyəti ilə seçilən heykəl portretləri obrazın ifadəliyi və fərdiliyi ilə seçilir;
- Akif Əsgərovun çoxfiqurlu kompozisiyaların plastik həlli zamanı harmonik quruluşa üstünlük verir;
- heykəltəraşın yaradıcılığında Heydər Əliyev obrazı böyük önəm kəsb edir;
- yaradıcılığında mühüm yer tutan ədiblərin obrazlarında, sənətkarlar onların yaradıcılığı ilə uzlaşan, dərin xəlqi, milli səciyyə daşıyan surətlər yarada bilmişdir.
- Akif Əsgərovun monumental heykəlləri konturların, heykəltəraşlıq və memarlıq həcmlərinin dəqiq nisbəti üzərində qurulur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin özünün qoyuluşu ilə müəyyən olunmuş və əsasən aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- ilk dəfə olaraq Azərbaycan sənətşünaslığında Akif Əsgərovun həyat və yaradıcılığı tam əhatəli şəkildə araşdırılıb və dolğun monoqrafik tədqiqat obyekti kimi təqdim olunmuşdur;
- Xalq rəssamı Akif Əsgərovun yaradıcılığı ardıcıl tədqiq olunaraq sistemləşdirilmiş, ayrı-ayrı mərhələlər müəyyən olunmuş və onların təhlilindən sonra bədii-estetik nəticə və müddəalar çıxarılmışdır;
- ilk dəfə olaraq heykəltəraşın monumental heykəltəraşlığı və memorial-xatirə əsərləri geniş əhatə olunmaqla təhlil edilmişdir;
- tədqiqatda heykəltəraşın sovet dönəmində ucaldılmış monumental və bir çox sərgilərdə nümayiş olunmuş kiçik plastik əsərlərinin təhlili əksini tapmışdır;
- heykəltəraşın müxtəlif zamanlarda yerinə yetirdiyi portret əsərləri ilk dəfə geniş şəkildə tədqiq edilərək təhlil olunmuşdur;
- ulu öndər Heydər Əliyevin Akif Əsgərovun yaradıcılığında önəmli yer tutan və bir çox xarici dövlətlərdə ucaldılmış monumental abidələri ilk dəfə tədqiqata cəlb edilmiş, özünün bədii-estetik dəyərini almışdır;
- heykəltəraşın müxtəlif dövrlərdə yaratdığı əsərlərin obrazlılığı ilk dəfə qeyd olunmuşdur;
- heykəltəraşın müxtəlif muzeylərdə, şəxsi fondlarda qorunan əsərlərin siyahısı hazırlanıb;
- heykəltəraşın uzun illik yaradıcılığı ayrı-ayrı istiqamətlərə bölünərək onların inkişaf istiqamətləri və yaradıcı nailiyyətləri müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Hazırki tədqiqat Azərbaycan incəsənət tarixini genişləndirərək təsviri sənətin ümumi inkişafında Azərbaycan Xalq rəssamı Akif Əsgərov yaradıcılığının rolunu, yerini və yaradıcılıq metodunu müəyyən edir. Tədqiqatın nəticələri və müddəaları Azərbaycan təsviri sənətinin zənginliyini,

növ və janr müxtəlifliyi diapazonunu və yaradıcılıq üslublarını genişləndirmiş olur.

Tədqiqat işi rəssamlıq təmayüllü ali və orta ixtisas müəssisələrində heykəltəraşlıq və sənətşünaslıq üzrə təhsil alan tələbələrə "Heykəltəraşlıq tarixi" və "Azərbaycan incəsənəti tarixi" kursları çərçivəsində tədrisdə istifadə oluna bilər. Digər tərəfdən dissertasiya Akif Əsgərovun yaradıcılığı haqqında yazılmış ayrıca elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir şəxs üçün dəyərli bir vəsaitdir.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas məzmunu, elmi müddəa və nəticələri on bir məqalədə öz əksini tapmışdır. Mövzu üzərindəki axtarışları əks etdirən məruzələr müxtəlif səpkili elmi konfranslarda dinlənilmişdir. Dissertasiya işi sənətşünas və heykəltəraş ixtisasına yiyələnən tələbələrin tədrisi prosesində, elmi-tədqiqat işlərinin aparılması zamanı tədbiq oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrı-ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, dörd paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. O cümlədən: : Giriş – 10.767, 1.1. – 45.679, 1.2. – 40.018, 2.1 – 57.562, 2.2. – 41.314, Nəticə – 7.778, olmaqla dissertasiyanın ümumi həcmi 203.102 işarədən ibarətdir. Tədqiqatın məzmununu əks etdirən illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## İŞİN MƏZMUNU VƏ ƏSAS MÜDDƏALARI

**Girişdə** mövzunun aktuallığı və işlənmə səviyyəsi, məqsəd və vəzifələri, obyekti və predmeti, müdafiəyə çıxarılan əsas müddəalar, eləcə də işin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, strukturu və həcmi haqda məlumat verilir.

Dissertasiyanın "**Xalq rəssamı Akif Əsgərovun yaradıcılığında mövzu axtarışları"** adlı **I fəslin "Akif Əsgərovun heykəltəraşlıq əsərlərində lirik-fəlsəfi düşüncənin bədii təzahürü"**-nün araşdırılmasına həsr olunmuş **1 paraqrafında** heykəltəraşlıq məkanında daha çox "təəssürat ifadəçisi" kimi tanınan sənətkarın müxtəlif mövzulu süjetli əsərlərində müraciət etdiyi motivlərin başqalarında yarada biləcəyi ilkin hiss-duyğunun çox incə plastik tutumda ifadə etdiyi haqda məlumat verilir. Onun "Düşüncə" (1994), "Oturmuş qız" (1992) və s. əsərlərində öz aləminə qapılmış obrazların fərdi və fərqli yaşantılarının uğurlu bədii şərhi ilə qarşılaşırıq. Bütün yaradıcılığı boyu obrazların plastik tutumunu daha çox faktura-səth oynaqlığı ilə təqdim etməyə üstünlük verən müəllif, bununla fiqurların canlı və daha ifadəli görünməsinə nail olmuşdur. Bu plastika təravətliliyinin əldə olunmasını şərtləndirən səbəblərdən ən başlıcası həmin işlərin bir qayda olaraq etüd ruhunda təqdim olunmasıdır. Belə ki, onlar etüd biçiminə salındığından həm də üzlərinin sona qədər dəqiqləşdirilməmiş cizgiləri ilə hər bir obrazın hərəkətinin başlanğıc təravətinin nüvəsini yapma manerasında qoruyub saxlaya bilmişdir. Əsərlərdə ilkin təəssürat o qədər canlı və cazibədardır ki, tamaşaçı onların bir anlığa "donduqlarına", gözünü ondan çəkəcəyi təqdirdə hərəkət edəcəyinə inanır. Ən adi həyat motivlərinin plastikanın dinamikası ilə əldə olunan bu cür canlılığı, etiraf edək ki, milli heykəltəraşlığımız üçün yenidir[9].

Akif Əsgərovun "Məhsəti məclisi", "Muğam" kompozisiyası, "Nuh peyğəmbər" və digər kompozisiyaları həm mövzu baxımından,

---

[9] Ağasoy-Səfərova, H. Müstəqillik dövründə Azərbaycan dəzgah heykəltəraşlığı : / sənətşünaslıq üzrə fəlsəfə doktoru, dis. avtoreferatı. / – Bakı: – 2015 – s.9

həm də texnikasına görə seçilsələr də, hər biri üçün oxşar cəhət estetiklik məfhumunun əsas olmasıdır. Bu kimi digər dolğun kompozisiya quruluşuna malik heykəltəraşlıq əsərlərində baş verən hadisələrə sənətkarın fəlsəfi yanaşması, səhnələrin adi təsvir çərçivəsindən çıxaraq onların dərin qatlara varan məzmun dəyərini dərk etməyə sövq edir. Belə əsərlərdən olan “Nuh peyğəmbər” adlı əsərində heykəltəraş dünyanın, yaranışın fəlsəfəsində dayanan sevgini, mərhəməti ilahi seçilmiş tərəfindən ifadə etməyə çalışmışdır. Burada qeyri-adi müdriklik bir peyğəmbər simasının təqdim etdiyi kamilliyin ifadəsində özünün parlaq həllini tapmışdır.

XX əsr siyasi hadisələri Azərbaycan incəsənəti tarixində də yeni forma olan monumental və dəzgah heykəltəraşlığının inkişafı üçün böyük imkanlar yaratdı. Ayrı-ayrı plastik janrların qarşılıqlı təsiri sayəsində heykəltəraşlığın mövzu diapazonu genişlənir, bədii ifaçılıq səviyyəsi yüksəlir, ideya-emosional imkanları artır, xalq həyatı ilə əlaqəsi möhkəmlənir. Heykəltəraşlar memarlıqda ansambl və bədii sintez problemlərinin həllində yaxından iştirak edərək daha mükəmməl kompozisiya axtarışları etməyə başladılar.

Akif Əsgərovun bu mənada böyük anlam daşıyan əsərlərindən biri də 2016-cı ildə Türkiyənin Bolu şəhərində qoyulmuş “Xarıbülbül” əsəridir. Qarabağın şah damarı olan yaralı Şuşamızın yaralı Xarıbülbülünü rəssam elə həmin ağrılı təsir forması ilə canlandırmağı bacarmışdır. Sevginin, məhəbbətin, sədaqətin rəmzi olan Xarıbülbülün formasını real olduğu kimi, daş fakturanın sərtliyinə baxmayaraq olduqca zərif, incə, yumşaq həssaslığı ilə canlandırmağa nail olan sənətkar onun tərənnümündə sanki canlı orqanizmin bədii ifadəsinin həllini yaradırmış kimi böyük həssaslıq nümayiş etdirmişdir.

Rəssamın klassik musiqimizə, sənətimizə, ədəbiyyatımıza verdiyi dəyəri “Məhsəti məclisi”, “Muğam”, “Musiqi” kimi əsərlərində xüsusi formalarla həyata keçirərək izləyicisində maraq yaratmağa müvəffəq olmuşdur. Bunun üçün o, musiqinin fəlsəfəsini, onun bəxş etdiyi psixoloji yaşantıların dərin dərkinin izahını uyğun kompozisiya quruluşunda canlandırmaq yolunda böyük ustalıq nümayiş etdirmişdir.

Musiqi dünyasının gözəllik fəlsəfəsinin dərkinə yönəli əsərlərdən biri də Akif Əsgərovun 2016-cı ildə yaratdığı "Xalq mahnısı" adlanır. Burada məzmun açıqlaması üçün bir obrazın sadə təsvirinin kifayət etməyəcəyi danılmazdır. Çünki ifanın məhz xalq mahnısı olduğunun təsirini vermək üçün dəqiq təsvir detallarının hər birinin üzərində ayrı-ayrı incəlik nümayiş etdirərək uğurlu nəticə əldə edilə bilərdi. İstedadlı heykəltəraşın bunun üçün həyata keçirdiyi kompozisiyasında obrazın bədii ifadəsindəki xəlqiliyi, milliliyi önə çəkməsi əsas məqsəddən çıxış edir. Xalqın yaradıcılığını əks etdirən, onun qorunaraq gələcək nəsillərə ötürülən sənətkarlar tərəfindən gözəl ifa səhnəsinin əks etdirilməsində rəssam gözəllik anlayışının birmənalı olaraq qadın simasındakı təqdimini şərtsiz olaraq canlandırmışdır.

Akif Əsgərovun kiçik heykəltəraşlıq nümunələri vardır ki, relyef təsvirlərin dolğunluğu, məzmunun mahiyyətini açan dərin təsviri ifadələr onların maraqla izlənməsinə başlıca səbəbdir. Misal olaraq, 2000-ci ilə aid 35x24 sm ölçüsündə olan "Teatr" əsərində istedadlı heykəltəraşın həyata keçirdiyi plastika çoxsaylı fiqur və detalların bir araya gələrək yaratdığı emosional təsir gücü ilə maraq oyadır.

Tişə ustası qeyd edilən əsərində hər hansı bir teatr səhnəsini deyil, ümumiləşdirilmiş kompozisiya quruluşunu təqdim edir. Sənətkar pərdənin dalğalanan qırışları arasından boylanan obrazları, surətlərin tərənnümündə qəzəb və təmkini, sevgi və nifrəti, səmimiyyət və saxtakarlığı, sadəlik və özündən razılıq kimi tərs tərəfləri eyni həyat səhnəsində qarşılaşdıraraq, hər kəsin öz rolunu ifadə etdiyini fəlsəfi dəyərləndirmə ilə həyata keçirmişdir. Dinamizmin, gərginliyin, hərəkətliliyin hökm sürdüyü əsərdə qoca, gənc, uşaq, kişi, qadın obrazlarının da əlaqəli tərənnümü böyük həssaslıqla həyat səhnəsinin bütün cizgilərini açmağa çalışır.

Fəslin **"Akif Əsgərovun yaradıcılığına məxsus çoxfiqurlu kompozisiyaların bədii ifadə vasitələri"** adlı **2 paraqrafında** qeyd olunur ki, Xalq rəssamı Akif Əsgərovun müəlliflik etdiyi yaradıcılıq nümunələrində diqqəti cəlb edən əsas cəhət fiqurların düzgün qurulmasında, digər köməkçi elementlərin az və ya çoxluğundan və

yaxud formasından asılı olaraq kompozisiyanın uğurlu plastik həllini müəyyənləşdirmək bacarığıdır. Onun “Nərd oyunu” çoxfiqurlu kompozisiyasında fiqurlar bir-birindən forma, plastik cəhətdən uyğunluq təşkil etmiş, eyni zamanda kompozisiyadakı fikir ideya bağlılığı ilə təmin olunmuşdur. Qeyd edilən nümunədə fiqurların düzülüşü, yerləşdirilməsi müəyyən bir ritmi ifadə edir ki, bu da özlüyündə heykəlin siluet həllinin düzgün müəyyən olunduğundan xəbər verir.

“Ağsaqqallar” əsərində rəssam sadə kompozisiyası ilə uzun bir həyat yolunun yolçularını böyük ustalıqla həyata keçirməklə tamaşaçısının diqqətini üzərinə cəlb etmişdir. Burada onların keçmişin xəyalı və bu günün reallığın arasındakı düşüncələri, fikirləri, verdikləri dəyər ümumi xarakterikliyin ifadəçiləri kimi təqdim edilmişdir.

Ümumiyyətlə, məkan və plastik sənət istiqamətində heykəltəraşlıqda yeni üsulların meydana gəlməsi onun sadəcə gilin yoğurulub biçimləndirilməsi, və ya daş kütlənin yonularaq hər hansı bir obyekt, yaxud mövzuların açılması üçün deyil, onun yerinə boşluqda bir məkan daxilində müxtəlif plastik obyektlərin kompozisiyasını yaratmaq yolu ilə meydana gəldiyini iddia edir. Misal olaraq Akif Əsgərovun “Bərə” adlı heykəlini göstərmək olar. Çoxfiqurlu kompozisiyada beş nəfər kişinin yan-yana dayanaraq eyni səhnəni izləməsi, lakin bu izləmədə fərqli xarakterik daxili aləmlərdən doğan özünəməxsus reaksiyaların ifadə olunduğunu müşahidə edirik. Fiqurların qalın geyimlərinin əsən küləyin eyni istiqamətində olan hərəkətinə görə yaradılmış plastikada boşluqda olan məkanı təsvirə daxil edərək dolğun kompozisiya quruluşunu meydana çıxardır.

Akif Əsgərovun yaradıcılığına məxsus əsasən dəzgah heykəltəraşlığında icra etdiyi bir çox əsərində insan, onun lirizminin təsirli ifadəsi, xarakterik cizgilərin reallaşdırılması üçün köməkçi detallardan istifadə, bütün təsvir elementlərini bərabər hüquqlu təsvir vasitəsinə çevirməsi onun bu yaradıcılıq istiqamətinin əsas bədii xüsusiyyətlərindəndir. Belə əsərlər sırasında “Axşam”, “Qoca və

keçi", "Oğlan öküzlə" və digər bu kimi heykəltəraşlıq nümunələrinin adlarını qeyd etmək olar.

İstedadlı heykəltəraşın çoxfiqurlu kompozisiyalarında insan və digər detalların qarşılaşdırılması zamanı onları əsas və köməkçi element kimi bir-birindən ayırd edərək əsərdəki mövqelərini birinin digərindən kənarda tutması mümkün deyil. Misal olaraq, quzularla təsvir edilmiş qadın obrazlarının təsvirində qeyd olunan nüansları aydın görmək mümkündür. Klassik Avropa heykəltəraşlıq sənətinin ənənələrini xatırladan əsərdə quzuları otarmağa çıxaran xanımların uzun geyimləri beldən daralaraq aşağıya doğru qırçınlı formalarla davam edir. Libasın sinəsi çiyinlərə qədər açıq olaraq qadın vücudunun xüsusi olaraq ecazkar görüntüsünü önə çıxardır. Əsərdə zərifliyi, nəzakəti, bir qədər həyəcanı ifadə edən təsvir vasitələri ilə birgə heykələ canlılıq bəxş edir.

Akif Əsgərovun seçilən işlərindən olan Şərqin böyük ədibi Nizami Gəncəvinin "Xəmsə"sinə həsr etdiyi silsilə barelyeflərin plastik-forma həlli, mükəmməl kompozisiya quruluşu, xüsusən də günbəzli oval formada həlli onların maraqla izlənməsinə səbəb olmuşdur. Xosrovun ov səhnəsini, İsgəndər və Nüşabənin görüşünü, saray məclisi və Fitnənin öküzü çiyinləri üzərinə alaraq pilləkənləri qalxması səhnəsini canlandıran barelyeflər yastılaşmış relyef üsulu ilə həyata keçirilmişdir ki, bu da onu təkcə frontal deyil, həm də perspektiv qavrayışına imkan yaradır.

2015-ci ildə Misirdə İsgəndəriyyə kitabxanasının zalında qoyulmuş "Nizami Gəncəvi və Xəmsə" heykəl kompozisiyası buna gözəl nümunədir. N.Gəncəvinin "Sirlər xəzinəsi" poemasından "Sultan Səncər və Qarı", "Leyli və Məcnun", "Xosrov və Şirin", "İsgəndərnamə" poemasından "Nüşabə və İsgəndərin görüşü" kimi motivlər barelyef kompozisiyalar şəklində ayrı-ayrı lövhələrdə həkk edilmişdir. Mərkəzdə isə şair, mütəfəkkir Nizaminin obrazı verilmişdir. Kompozisiyada barelyeflər şairin əsərlərindən götürülmüş motivlərin və buradakı obrazların lakonik həlli, "Xəmsə" müəllifi olan Nizaminin portretinin aşağısında kitabın üzərindəki "Xəmsə" kəlməsinin üç dildə yazılması ilə Akif Əsgərov sanki tamaşaçını bu açıq kitab rolu oynayan əsəri ilə onun daşlaşmış

versiyasını oxuyub düşüncələrə dalmağa dəvət edir. Relyeflərdəki fiqurlar ümumi bir qaydaya sadiq qalaraq yerinə yetirilmişdir. Klassik sənətin müasir dövrdə ənənəvi prinsiplərindən istifadəsi ilə yanaşı onun yeni üslubda tətbiqi Akif Əsgərov yaradıcılığında özünün yüksək sənətkarlığını nümayiş etdirir.

Heykəltəraş çoxfiqurlu kompozisiyaların dinamik çalarların bədii ifadəsində, heyvan və insan fiqurlarının təsvirində eyni təsir gücünə malik ifadələrin emosionallığına hər zaman eyni şəkildə nail ola bilmişdir. Məsələn, 2014-cü ilə aid 43x80x20 sm ölçüsündə həll edilmiş "Atlar" əsərində qarşı-qarşıya verilmiş fiqurların bədii həllində qeyd edilən nüansın parlaq ifadəsini görmək mümkündür.

Dissertasiyanın **"Xalq rəssamı Akif Əsgərovun əsərlərində obrazlılıq"** adlı **II fəslin "Xalq rəssamı Akif Əsgərovun yaradıcılığında görkəmli şəxslərin obrazları"** adlı **1 paraqrafında** Akif Əsgərovun yaradıcılığının səciyyəvi cəhətlərindən biri olan müasirlərinə böyük maraq hissi, onların xarakterlərindəki ən ümdə cəhətləri daha canlı vermək, kompozisiyanı müxtəlif bədii üsullarla zənginləşdirmək cəhdi araşdırılır. Bu mənada onun yaradıcılığında milli mövzuların xüsusi yer tutmasını və əsərlərində respublikanın tanınmış insanlarının obrazları üstünlük təşkil etdiyini də vurğulamaq lazımdır. Akif Əsgərov müasirlərimizi realist ümumiləşdirmə mövqelərindən təsvir edir, adi gündəlik hadisələrdə gerçəkliyin estetikasını, qurub yaradan insanın mənəvi aləminin gözəlliyini, ona xas olan ləyaqəti, daxili inamı, yaradıcı fəallığı və həyatsevərliyi dərk etməyə çalışır. Müasir insanın, ictimai və dövlət xadiminin, ziyalıların, mədəniyyət xadimlərinin mənəvi zənginliyi onun üçün tükənməz mövzu təşkil edir. Akif Əsgərovun əsərləri zahirinə görə nə qədər duyulası dərəcədə müasirdirsə, mahiyyətcə, tutumlu bədii-estetik məziyyətlərinə görə bir o qədər də millidir. Onun yaradıcılığını əski qaynaqlarla gerçəkliyə nüfuzedici bədii münasibət prinsiplərinin doğmalığı birləşdirir. Bu yaxınlıqda həm gözəlliyi duymaq, həm də onu təhlildən keçirməklə bir qədər də ideallaşdırmaq mövcuddur.

1996-cı ildə təxminən 3 m. hündürlüyündə İranda Urmiya şəhərində İran-İraq müharibəsində həlak olan azərbaycanlı

generalların xatirəsini əbədiləşdirmək məqsədilə “General şəhidlərə abidə” qoyulmuşdur. Həmid Bakiri və Mehdi Bakiri, Əmini adlı generallara ithaf olunmuş heykəllərdə onların şücaəti, igidliyi əsas rol oynayaraq onların pozalarında, portret cizgilərində öz əksini taparaq abidəyə dolğunluq qazandırmışdır. Heykəltəraş Akif Əsgərov Salxab Məmmədovla birgə Masazır qəsəbəsində “Əliağa Vahid”, Novxanı kəndində “Mehdi Hüseynzadə”nin abidəsini, 2010-cu ildə Macarıstanın paytaxtı Budapeştdə “Frides Podmaninskinin xatirə lövhəsini” yaratmışlar.

2004-2005-ci illərdə Azərbaycanın regionlarında Şamaxıda, Xaçmazda, Balakəndə və Zaqatalada Ümummilli lider Heydər Əliyevin abidələri ucaldılmışdır. Akif Əsgərov Azərbaycan xalqının xilaskarının qətiyyətli, məğrur milli ideologiyamızın təmsilçisi kimi məziyyətlərini ön plana çıxarmışdır. Obrazın psixoloji-daxili aləmi, liderə xas olan uzaqgörənlik kimi keyfiyyətlər Akif Əsgərovun bədii forma və plastik həll axtarışlarını özündə birləşdirir.

2009-cu ildə Bakıda Milli Məclisdə qoyulmuş Heydər Əliyevin büstündə ümummilli liderin təmkinli, düşüncəli, qətiyyətin təntənəsi kimi hisslər tərənnüm olunmuşdur. Tunc, qranit kimi materiallar vasitəsilə obrazın möhkəm iradəsi, əzmkarlığı, temperamenti nəzərə çarpır və sanki heykəl kütləsinə yenidən canlılıq bəxş edir. Ölkəmizin hüdudlarından kənarda da Akif Əsgərov Heydər Əliyevin xatirəsini əbədiləşdirmişdir. Misir və Türkiyədə, Gürcüstanda qoyulmuş abidələr buna bariz nümunə ola bilər.

Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli siyasi xadimi, hüquqşünas və parlament sədri Əlimərdan bəy Topçubaşovun 2002-ci ildə Parisin yaxınlığındakı müqəddəs Sen-Klu məzarlığında qoyulmuş qəbirüstü abidəsində onun alicənablılığı, yüksək nüfuz sahibi olması, təvazökarlığı ilə bərabər kübar cəmiyyətin üzvü olması öz əksini tapmışdır. Parlament sədri Topçubaşovun şəxsi inikası və möhürü, “Bir yolumuz var İstiqlal” şüarı Akif Əsgərov tərəfindən ayrı-ayrı lövhələrə həkk edilərək obrazın kimliyinin açılmasına xidmət edir.

Akif Əsgərov bütün monumental portret kompozisiyalarındakı incəliklərə hər zaman xüsusi məsuliyyətlə yanaşmışdır. O, bununla obrazın cizgilərinə və şərhinə müxtəlif səpkilərdən yanaşaraq portret kompozisiyanın bütövlüyü ilə nəzərə çarpan, sifət ritminin incəliklə yapıldığı obrazın ifadəliyi sayəsində nail olmuşdur. Burada rəssam əsərin plastik məğzini pozmayaraq, forma yaratmanın qanunlarına daim sadiq qalmışdır. Portreti yaradılan şəxsiyyətin tarixi, ədəbi və yaxud siyasi şəxsiyyət olmasına baxmayaraq, onların hər birində obrazın portret oxşarlığına diqqətlə yanaşan rəssam qəhrəmanının yaddaqalan simasını nəsillərə ötürmək yolunda böyük fəaliyyət göstərmişdir.

Akif Əsgərovun bütün monumental əsərlərində dəqiq cizgi tərənnümü, xarakterik psixoloji açılışla yanaşı, monumentin ətraf mühitlə uğurla əlaqələndirilməsinə, onun memarlıq mühitində nəzərdən itməyərək diqqəti cəlb etməsinə böyük prinsipiallıqla yanaşdığının hər zaman şahidi oluruq. Nümunə üçün Azərbaycanın görkəmli alimi Yusif Məmmədəliyevə həsr edilmiş abidəsini göstərək. Heykəl İçərişəhər metrosu yaxınlığında İstiqlaliyyət küçəsində qoyulmuşdur. Açıq küçəyə baxan heykəl mərkəzdə yerləşdirilərək öz ölçüsü etibarilə məkana tam uyğunlaşdırılmış ölçüsü ilə uğurun əldə edildiyini təsdiqləyir.

Kompozisiyada postamentin ölçülərinin düzgün müəyyənləşdirilməsi də bütövlükdə əsərdə öz müsbət təsirini göstərməklə onu tamamlayır. Sənətkar heykəldə postamentin ölçüləri ilə heykəlin ölçüsünü ətraf mühit və arxitekturanın tələblərini nəzərə almaqla müəyyənləşdirmişdir. Bununla rəssam kompozisiyanın bütövlüyünə, mütənasibliyinə və tarazlığın düzgün müəyyənləşməsinə nail olmağı bacarmışdır. Arxa planda qala divarlarının klassik görüntüsünün əsərlə yaratdığı əlaqələndirmə onun daha möhtəşəm göründüyünü inkar etmir. Qırmızı mərmərdən hazırlanmış postamentin daha hündür verilməsi əsərin hər bir tərəfdən aydın qavranılmasına imkan verir.

Bunu Abşeron rayonu, Masazır qəsəbəsində böyük qəzəlxan Əliağa Vahidin xatirəsinə ucaldılmış heykələ də aid etmək olar. Burada şairin poetik daxili dünyası həm lirik-romantik, həm də dərin

xarakterik cizgilərlə ifadə edilmişdir. Rəssam bunun üçün qara mərmərdən olan postamentin üzərində tuncdan həll edilmiş heykəldə qəzəlxanın xüsusi olaraq təvazökarlığını və ciddiliyini bir yerdə həll etməyi uğurla bacarmışdır.

2012-ci ildə ucaldılmış Azərbaycan musiqisinin görkəmli siması olan SSRİ Xalq artisti Bülbülün abidəsi paytaxtımızda özünəməxsus gözəlliyi ilə seçilən heykəllərdən sayılır. Bu heykəldə müğənninin obrazında uğurlu səhnə çıxışından sonrakı təəssürat, melodik, ritmik elementlər nəzərə çarpır. İfaçının əynindəki frakın qırçınları, səhnənin pərdəsinin açılışı və çıxışın kulminasiyasının başa çatması heykələ lirik əhvali-ruhiyyə qazandırmışdır. Bədii forma, faktura, plastikanın vəhdəti obrazın ovqatı ilə sintez təşkil edərək nəzəri cəlb edir.

Qeyd edilən bütün bu fikirləri heykəltəraşın Azərbaycanın Xalq artisti, görkəmli musiqiçi Ağaxan Abdullayevin məzarüstü abidəsi haqqında da qeyd etmək olar. Mərhum muğam ustasının xatirəsinə həsr edilmiş abidəsi Bakının Türkan qəsəbəsi qəbiristanlığında yerləşir.

Heykəlin bədii həllində Akif Əsgərov sənətkarın dünyasına, sənətinə xas əsas cəhətləri bir araya gətirərək lirik hisslərin tərənnümünə çalışmış və buna uğurla nail olmuşdur. Əsər dördkünc lövhə üzərində verilmiş, detallar kənar hissələrə doğru yayılaraq daha maraqla izlənilə biləcək sənət əsərini meydana çıxarmışdır. Məsələn, verilmiş qavalın sol yarımdairəsi lövhədən kənara çıxaraq əsəri sadə donmuş təsvirdən çıxararaq ona dinamizm bəxş etmişdir.

Ağaxan Abdullayevə həsr olunmuş portret təsvir, böyük bir qavalın daxili hissəsində həll edilmişdir. Qavalın daxilindəki metal halqaların belə real tərənnümünü uğurla həyata keçirən rəssam bu detalın vasitəsilə sanki portreti çərçivəyə alaraq onun həm mənalı, həm də estetik görüntüsünə dəyər bəxş etmişdir. Qavalın sol hissəsindən çiçək və gül təsvirləri yan hissəni əhatələyərək yuxarıya doğru davam etməklə abidənin dolğun kompozisiya quruluşunu meydana çıxarır. Güllərin üzərindən uçan bülbülün qanadlanaraq pərvazlanması olduqca romantik, duyğulu bədii ifadəli təsir

bağışlamaqdadır. Lövhənin üzərində “Xalq artisti, professor Ağaxan Abdullayev” kəlməsi qızılı hərflərlə həkk edilmişdir

Faşizmə qarşı mübarizə aparan Azərbaycanımızın igid oğullarından biri olan Mehdi Hüseynzadənin abidəsi qəhrəmanın doğulduğu Bakının Novxanı kəndində, digəri isə həlak olduğu Sloveniyada ucaldılmışdır. Hər iki abidədə unudulmaz şəxsiyyətin vüqarlı, rəşadətli obrazı eyni təsir gücündə verilmişdir.

Akif Əsgərovun 2010-cu ildə Macarıstanın paytaxtı Budapeştdə macar xalqının mədəniyyətində xidmətləri olan, xeyriyyəçi Frides Podmaninskinin xatirə lövhəsi sənətkarın görkəmli sənət nümunələri sırasında xüsusi yer tutur. Obrazdakı milli dəyərlərin, cizgilərin özünü qabarıq göstərməsi danılmaz faktdır. Buna rəssamın apardığı böyük müşahidələr, əldə etdiyi təcrübə əsasında nail olduğunu qeyd etmək olar.

Azərbaycan ədəbiyyatının dühası olan Nizami Gəncəvinin 2000-ci ildə Moldovanın paytaxtı Kişinyovda qoyulmuş büstü (tunc, qranit) Akif Əsgərovun təəssübkeşliyindən, klassik ədəbiyyatımızı sevməsindən irəli gəlir. Heykəltəraş mütəfəkkir, şair Nizaminin büstündə obrazın baxışlarını, üz cizgilərini, onun daxili aləmini qabarıq şəkildə ön plana çıxarmışdır.

Akif Əsgərov yaradıcılığında yer almış görkəmli şəxsiyyətlərin obrazlarını böyük sevgi və ehtiramla həyata keçirdir. Belə nümunələr sırasında Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkə həsr etdiyi plastik sənət əsərinin adını da qeyd etmək olar. Heykəltəraş Atatürkə həsr edilmiş əsərini yuvarlaq çərçivə tipli element daxilində relyefli olaraq həyata keçirmişdir.

Akif Əsgərov Xaçmazda muzey binasının eksteryerində 28 heykəl kompozisiyası yaratmışdır.

Filosof, astronom, riyaziyyatçı, tarixçi, maliyyəçi, ilahiyyatçı və hüquqşünas, nəhayət dövlət xadimi olan Nəsrəddin Tusinin əlində qlobusu ilə, XII əsr Azərbaycanın görkəmli şairəsi Məhsəti Gəncəvinin, orta əsr Azərbaycan şairi, mütəfəkkir və filosof, Azərbaycan ədəbiyyatı tarixində divan janrının ən məşhur və görkəmli nümayəndələrindən biri olan Məhəmməd Füzulinin, şair, yazıçı və dramaturq Hüseyn Cavidin, dramaturq, nasir Süleyman

Sani Axundovun, bəstəkarlar Qara Qarayevin və Üzeyir Hacıbəyovun, muğam üçlüyü - Xan Şuşinski, Qurban Pirimov, Habil Əliyevin və başqalarının heykəllərini poliestrdən yaratmışdır. N.Tusinin simasında onun müdrikliyi, M.Füzuli, Məhsəti və H.Cavidin obrazlarında poetik təfəkkür öz əksini tapmışdır. Silsiləyə daxil olan hər bir əsərin obraz həllində heykəltəraşın şəxsiyyətini tərənnüm etdiyi müxtəlif dövrlərin tanınmış insanları onların fərdi xüsusiyyətlərinin, xarakterik cizgilərinin dəqiq və mənalı həlli ilə həyata keçirdiyinin şahidi oluruq.

Beləliklə, heykəltəraş hər bir obraz üzərində çalışarkən onu dövrünə uyğun xarakterik olaraq canlandırmaqla yanaşı, eyni zamanda həmin şəxsiyyətin daxili, mənəvi dünyasını ifadə edən cizgilərin bədii ifadəsi ilə fərdiyyətini böyük ustalıqla meydana çıxarmağa hər zaman nail ola bilmişdir.

Fəslin **“Akif Əsgərov yaradıcılığında obrazlılığın təzahürü”** adlı **II paraqrafında** qeyd olunur ki, heykəltəraş yaratdığı insan surətlərinin daxili xarakterik aləmini və yaxud bir anın mövcud yaşantıların əksini canlandıran əsərlərində yaratdığı obrazlılıqla yüksək sənətkarlığını daim təsdiqləməyə nail ola bilmişdir. Tanınmış şəxsiyyətlərin xarakterik aləminin açılmasında uyğun forma seçən rəssam, obrazlılıq anlayışını çox zaman bir insanın ani duyğularının, yaşantılarının əks olunmasında böyük ustalıqla həll etməyi bacarmışdır.

2011-ci ildə Berlinin Şteqlits-Selendorf inzibati dairəsində Akif Əsgərov, Salxab Məmmədov, Əli İbadullayevlə birgə xalqımızın faciəsini əks etdirən “Xocalı abidəsi”ni Akif Əsgərov barelyef kompozisiyalarla yapmışlar. Burada çoxfiqurlu insan kompozisiyaları xalqımızın başına gətirilən dəhşətlərdən qurtulmaq üçün çarəsiz şəkildə yuxarıya doğru hərəkət etməkdədirlər. Konseptual xarakterli bu abidə 3 təpəni xatırladır. Ah-nalə içərisində sanki inləyən bu insan fiqurları insanları soyqırımın dəhşətinə biganə qalmamağa səsləyir. Burada güclü ekspressiv təqdimat, yapma manerası sənətkarların üzərinə düşən bu məsuliyyətli işin öhdəsindən gəldiklərini göstərir.

Heykəltəraş “Özündən razı”, “Heyranlıq”, “Fasilə” əsərlərində qəhrəmanların obrazlarının daxili xarakterik aləmini və yaxud onların bir anın mövcud yaşantılarının əksini canlandıran lirik-romantik cizgilərini verməklə zərif qadın dünyasının daxili aləmini açmağa çalışır.

Akif Əsgərov tanınmış tarixi şəxsiyyətlərin obrazlaşmış ifadəsində onların xarakterik aləminin açılışına xidmət edən dərin cizgilərlə ifadəsi 37x14x12 sm ölçüsündə olan “Şairə. XII əsr” adlı heykəltəraşlıq nümunəsində diqqəti xüsusilə cəlb edir. Akif Əsgərovun yaratdığı heykəldə şairə özünün qürurlu, vüqarlı dünyasını ifadə edərək zəngin daxili aləmindən doğan poetik cizgilərin xarici tərənnümünü bütünlüklə özündə əks etdirir. Burada hər şeydən əvvəl dövrün yüksək təbəqəyə məxsus qadınlarına xas olan geyim tərzinin uğurlu həlli diqqəti cəlb edir. Qeyd edilən nüansın sayəsində obrazın uğurlu təsviri həllində əldə edilən nəticə danılmazdır. Uzun ətəyin qatları, dizə qədər olan arxalığın düymələrinə qədər incə detalların dəqiq həlli, eləcə də çalmasının XII əsr ziyalı qadınlarına məxsusluğu bütünlükdə əsərin təsir gücünü qüvvətləndirmiş, digər tərəfdən heykəltəraşın Azərbaycan tarixi və etnoqrafiyası sahəsində biliklərə malik olduğunu sübut edir.

Eyni fikri onun “Sərkərdə” əsərindəki obraza da aid etmək olar. Heykəltəraş böyük bir həyat yolunu və onun yükünü daşıyan şəxsin simasını yaradarkən burada ən əsas xarakterik olan müdriklik və qətiyyətliliyi, ciddiyyəti bir arada verməyi bacarmasıdır. Əsərdə sənətkar eyni zamanda hərbi, döyüş geyiminin sərkərdəyə məxsus tərzdə həll edilməsində plastik qanunların düzgün və məqsədli istifadəsi ilə bir daha əvəzolunmaz heykəltəraşlıq səriştəsini təsdiq etməyi bacarmışdır.

Akif Əsgərovun balet rəqqasələrinə həsr etdiyi silsilə xırda plastika əsərləri zərifliyin, incəliyin tərənnümü olaraq böyük məharətlə işlənmişdir. Bu sırada “Rəqs”, “Oturmuş balerina”, “Əyləşmiş balerina”, “Balerina” kimi bu tipli əsərlərində Akif Əsgərov obrazların zərif, incə mənəvi dünyasının canlandırılmasında, onların bütünlükdə zərif xarici görkəmini

məsumluq saçan ifadələrində həll etməyi daha məqsədəuyğun hesab etdiyinin şahidi oluruq.

Akif Əsgərovun yaradıcılığına məxsus əsərlərində yaratdığı hər hansı bir obrazında donuq, sabit təsvirlə rastlaşmırıq. Hər bir əsərin dinamizmi onların maraq dairəsini artırmağa xidmət edir. Belə nümunələrdən “Oğlan”, “Model”, “Əlində lent olan qız”, “Balaca qız” kimi əsərlərində obrazların dinamik təsvirini görmək olar. Heykəltəraş burada köməkçi detalın vasitəsilə onu dinamik, hərəkətli bir vəziyyətdə, təsvirdən əvvəl və sonra ediləcək hərəkətlərin aydın təəssüratını yaradacaq şəkildə həyata keçirmişdir. Hərəkət dinamizminin daha ifadəli görünməsi üçün heykəltəraş obrazlarının geydiyi libasın formasında qırçınlı, dalğalı, qatları çox olan effektdən istifadə edərək onun ekspressiv gücünü dəyərləndirməyə çalışmışdır.

İnsan bədəninin plastik gözəlliyinin mükəmməlliyi, bütün dövrlərdə incəsənətin digər sahələrində fəaliyyət göstərən rəssamlarla yanaşı heykəltəraşların da daima diqqət mərkəzində olmuşdur. Çünki yalnız insan obrazı, sənət əsərlərinin yaranmasında həm öz fiziki gözəlliyi ilə, həm də ruhi-mənəvi parametrləri ilə ikili keyfiyyət cəhətlərinə malikdir.

Görkəmli heykəltəraş Akif Əsgərovun yaratdığı bir sıra çılpaq fiqurlarında gözəlliyin həm fiziki, həm də mənəvi birləşməsi ilə rastlaşırıq. Sənətkar heç bir zaman çılpaq qadın fiqurlarında onları sabit dayanmış vəziyyətdə əks etdirməmiş, qeyd edilən ikili keyfiyyətin eyni dərəcəyə malik bədii ifadəsinin yaradılmasında fərqli formalardan istifadə etməyi məqsədəuyğun hesab etmişdir.

Belə nümunələrdən birində xüsusi olaraq əzələli qadın təsvirinin yer aldığı maraq oyadır. Bunun üçün rəssamın onun əllərini başının üzərinə qaldıraraq vücudun bütün əzələlərini qabarıq üzə çıxarmağa çalışması diqqəti cəlb edir. Fiqur bu pozada bədənini də bir qədər yana doğru əymiş, bir ayağını digərindən bir qədər irəliyə qoyaraq tamaşaçısında yaranmış hərəkətli ifadəsində monotonluqdan çıxmışdır.

2000-ci ildə yaradılmış 54x18x16 sm ölçüsündə olan digər bir çılpaq qadın əsərində isə qadının daha incə, zərif forması nəzəri cəlb edir. Bunun seçilmiş duruş vəziyyəti də daha zərif və incə olmaqla

digər əsərlər arasında olan fərqi izah edir. Burada da qadın iki əlini yuxarıya qaldırmış formada verilmişdir. Lakin o, hər iki əli ilə uzanan saçları tutaraq sanki onları toplamağa hazırlaşırmış kimi hərəkətli formada həyata keçirilmişdir.

**Nəticədə** dissertasiyanın əsas müddəaları yekunlaşdırılmışdır:

- Akif Əsgərovun müxtəlif mövzularda yaratdığı heykəllərdə bədii ənənəyə yaradıcılıqla yanaşma prinsipinə üstünlük verməsi, onun çoxsaylı əsərlərində hadisənin və obrazların fəlsəfi dərkini həll etmə gücünü nümayiş etdirməklə, plastik həllin orijinallığına nail olmağa imkan vermiş, müəllifin dəst-xətt özünəməxsusluğunu şərtləndirməklə qarşıya qoyulan problemin həllinə nail olduğunu nümayiş etdirmişdir;

-heykəltəraşın yaradıcılığına məxsus çoxfiqurlu kompozisiyaların bədii ifadə vasitələri üzrə araşdırma zamanı sənətkarın bu istiqamətdə aktual mövzular üzrə qurulan yaradıcılıq nümunələrində insan fiqurlarının və digər köməkçi elementlərin sayından və formasından asılı olaraq kompozisiyanın plastik həlli zamanı harmonikliyin bədii ifadəsinə ustalıqla nail olmağı bacarması öz təsdiqini tapmışdır;

- Akif Əsgərov hər bir obraz üzərində çalışarkən onu dövrünə uyğun xarakterik olaraq canlandırmaqla yanaşı, eyni zamanda həmin şəxsiyyətin daxili, mənəvi dünyasını ifadə edən cizgilərin bədii ifadəsi ilə fərdiyyətini böyük ustalıqla meydana çıxarmağa hər zaman nail ola bilmişdir;

- istedadlı heykəltəraş müxtəlif kompozisiya vasitələrindən istifadə etməklə real obrazlar dünyasını özünəməxsus qaydada təsvir etməyə nail ola bilmişdir. Bu yaradıcılıq istiqamətində əsas məqsədin həqiqətdə olan gözəlliyi əks etdirmək olduğu hər bir nümunənin fərqli kompozisiya quruluşlarında özünü bir daha təsdiq edir;

- onun heykəlləri öz aydınlığı və tarazlığı ilə diqqəti cəlb edir. Fiqurun plastik yapmasının tamlığı ona monumental ümumiləşdirmə verir. Formaların ciddiliyi və sadəliyi, ayrıca, incə detallar olmadan, sıx heykəltəraşlıq modelləşdirməsi təsvirin aktivliyini və daxili gücünü vurğulayır.

- heykəltəraş obrazın ən dürüst səslənməsi üçün, onun real inandırıcılığının axtarışları zamanı qəhrəmanın həyat və taleyinin konkret faktlarından çıxış etmişdir.

**Mövzu ilə bağlı müəllif tərəfindən aşağıdakı məqalələr dərc edilib:**


1. Heykəltəraş Akif Əsgərovun dəzgah əsərlərinin bədii xüsusiyyətləri // "Təsviri və dekorativ-tətbiqi sənət məsələləri". Azərbaycan Milli Xalça muzeyi/ Bakı, 2018. №21 – s.106-109.
2. Художественно-эстетическое и объемно-пространственное решение монументальных произведений скульптора Акифа Аскерова // Paradigmata poznani. Prague, 2019. №1 – с.68-71.
3. Əməkdar rəssam Akif Əsgərovun yaradıcılığında çoxfiqurlu heykəllər // "Axtarışlar". AMEA-nın Naxçıvan bölməsi. Incəsənət, Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, 2020. №2(36), cild 13 – s.150-154.
4. Əməkdar rəssam Akif Əsgərovun heykəltəraşlıq əsərlərində obrazlılıq // "Mədəniyyət dünyası". Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, 2020, XXXVIII – s. 99-103.
5. Akif Əsgərovun monumental heykəltəraşlıq əsərlərinin bədii xüsusiyyətləri // "Axtarışlar". AMEA-nın Naxçıvan bölməsi. Incəsənət, Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, 2020. №4(38), cild 14 – s.144-148.
6. Nizami Gəncəvi obrazları xalq rəssamı Akif Əsgərovun yaradıcılığında // "Axtarışlar". AMEA-nın Naxçıvan bölməsi. Incəsənət, Dil və Ədəbiyyat İnstitutu. Naxçıvan, 2020. №4(41), cild 15 – s. 179-182.
7. Əməkdar rəssam Akif Əsgərovun əsərlərində cəlbedici dinamika // "Sənət Akademiyası". Bakı Xoreoqrafiya Akademiyası. Bakı, 2021. №1(13) – s. 96-99.
8. Akif Əsgərovun yaradıcılığına məxsus obrazlılığın təqdimində müəllif ideyası // "Mədəniyyət: problemlər və perspektivlər". "Qarabağ Azərbaycandır!". Doktorant və gənc

tədqiqatçılarının XVI Beynəlxalq elmi konfransı. Bakı. 2021, 12 fevral – s. 295-297.
9. Образ Гейдара Алиева в творчестве Народного художника Акифа Аскерова // “Art Architecture Technical science Agricultural sciences”. Miedzynarodone czasopismo naukowe. – 2021. №22 (109). Czesc 1 - с. 24-27.
10. Akif Əsgərovun yaradıcılığında ikifiqurlu kompozisiyaların bədii xüsusiyyətləri // Mədəniyyət: problemlər və perspektivlər. “Yaşıl dünya naminə həmrəylik ili”. Doktorant və Gənc Tədqiqatçıların Respublika Elmi Konfransı - XVI Bakı. 2024, 19 aprel. s. 42-45.
11. Отражение философско-мыслительного образа в творчестве Акифа Аскерова // Международная научно-практическая конференция. Историческая память и культура как ресурс гражданского единения народов . Владимир. 2024, 16 августа. с.332-337.

Dissertasiyanın müdafiəsi 19 dekabr 2024-cü il tarixində saat 11:00-da Azərbaycan Rəssamlıq Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.34 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Azərbaycan Rəssamlıq Akademiyası AZ 1029, Baki şəhəri, Heydər Əliyev prospekti 26.

Dissertasiya ilə Azərbaycan Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Rəssamlıq Akademiyasının www.adra.edu.az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 15 noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30 oktyabr 2024
Kağızın formatı: A5
Həcm: 37.724
Tiraj: 100